# Azərbaycan Ermənistana beşinci dəfə yenilənmiş sülh sazişi layihəsi təqdim edib

## *Hikmət HACIYEV:* "Avropa institutları regionda sülh gündəminin təşviqi üçün problemin deyil, həllin bir hissəsi olmalıdırlar"

**"Azərbaycan Ermənistana beşinci dəfə yenilənmiş sülh sazişi layihəsi təqdim edib".**



"Trend"in məlumatına görə, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Brüsseldə jurnalistlərə deyib.

Qanunsuz erməni rejiminin tərk-silah olunaraq Azərbaycan ərazisini tərk etdiyini bildirən Hikmət Hacıyev qeyd edib ki, bu, Ermənistanla Azərbaycan arasında sülh razılaşması yolunda maneələri aradan qaldırır: "Düşünürük ki, iki ölkə arasında antaqonizmə və düşmənçiliyə son qoymaq, Azərbaycanın Ermənistana təklif etdiyi beş prinsipə əsaslanan davamlı sülhü inşa etmək üçün tarixi imkan yaranıb". Prezidentin köməkçisinin sözlərinə görə, Azərbaycan daha geniş Avrasiya xəritəsində ən uzunmüddətli münaqişələrdən birinin həll modelini yaradıb.

Hikmət Hacıyev həmçinin keçmiş Minsk qrupunun arzuolunmaz fəaliyyəti, münaqişənin həlli istiqamətində həyata keçirilən proseslər və sülh müqaviləsi ilə bağlı hazırkı durumu da dəyərləndirib: "Minsk qrupunun həmsədrliyi uğursuzluğa düçar oldu, çünki onun məqsədi Azərbaycan ərazisinin Ermənistanın işğalı altında qalmasının davam etməsindən ibarət idi. Biz hərbi işğala son qoyduq. Azərbaycan artıq sülhü və Ermənistanla münasibətlərin normallaşmasını prioritet hesab edir. Lakin istənilən sülh sazişi iki tərəfin iştirakını tələb edir və Ermənistan xoş məram nümayiş etdirməlidir. Biz Ermənistana sülh sazişinin beşinci yenilənmiş layihəsini təqdim etdik, lakin artıq iki aydır ki, onlar reaksiya vermirlər".

Hikmət Haçıyev Cənubi Qafqazda yeni reallıqların formalaşdığını, qanunilik və legitimliyin bu yeni reallıqların əsasında dayandığını qeyd edib: "Biz regional təhlükəsizliyin yeni, ədalətə, bir-birinin ərazi bütövlüyünü və suverenliyini tanımağa və bütün ərazi iddialarına son verməyə əsaslanmış arxitekturasını inşa etmək istəyirik. Fikrimcə, biz sülhə nail olmalıyıq və əlavə tərəfdaşlar bu sazişi dəstəkləyə bilər".

Prezidentin köməkçisi deyib ki, münaqişənin "dondurulduğu" dövrdə Avropa Parlamentində azərbaycanofobiya və Azərbaycana qarşı islamofobiya təzahür edirdi. "Aİ Şurası bu yaxında Azərbaycanı tənqid edən bəyanat yayıb və biz bunu yersiz hesab edirik. Azərbaycanın əraziləri işğal altında olduğu dövrdə Avropa institutları heç vaxt ədalətlə yanaşmayıb. Uzun illər ərzində Gürcüstan, Moldova, Ukrayna və Azərbaycanda separatçı birləşmələrə qarşı müxtəlif yanaşmalar mövcud olub", - deyə Prezidentin köməkçisi qeyd edib.

Hikmət Hacıyev Aİ-nin Fransa kimi bəzi üzv ölkələrinin Ermənistanda militarizasiya proqramını başlatdığını da əlavə edib: "Biz militarizasiyanı dəstəkləmirik. Ermənistana militarizasiya proqramı lazım deyil. Sülh proqramı lazımdır. Fransa Ermənistana raket silahları ilə zirehli maşınlar göndərir. Ermənistan Fransadan, həmçinin, üç radiolokasiya sistemi və yaxın məsafəli "Mistral" "yer-hava" sinifli raketlər satın alır. Biz həmişə Fransa kimi üzv dövlətlərə Azərbaycan ərazisində separatizmi dəstəkləməməsi və regionumuzda erməni revanşizmini və ya geosiyasi oyunları təşviq etməmələri barədə xəbərdarlıq etmişik. Fikrimizcə, tarixi imkan yaranıb və müvafiq Avropa institutları regionda sülh gündəminin təşviqi üçün problemin deyil, həllin bir hissəsi olmalıdırlar".

---

Azərbaycan.- 2023.- 19 noyabr, № 252.- S.3.